# Tariximizin istedadlı tədqiqatçısı

***Amansız COVID-19-un tanınmış tarixçi alim və arxeoloq Kamil İbrahimovu kəmfürsətliklə sıralarımızdan qoparıb aparmasından bir il keçir. Doğmalarını-dostlarını, sevib-seçdiyi fəaliyyət sahəsini vaxtsız-vədəsiz tərk etməkdən xilas edə bilmədiyimiz Kamil müəllimin yarımçıq qalmış ömür yolu ötən bir ildə əziz və təsəlliverici bir xatirəyə çevrilib bu itkidən yanıb-yaxılan çox sayda insanın qəlbində yuva qurdu.***



O, 1962-ci il iyun ayının 8-də halal bir ocaqda, ziyalı ailəsində doğulmuşdu. Azərbaycanın görkəmli arxeoloqu, uzun müddət Bakı arxeoloji ekspedisiyasına rəhbərlik etmiş Fərhad İbrahimovun ailəsinin ilk övladı olmuşdu. Dünyaya gəlişi ilə bu nəslə bolluca sevinc bəxş eləmişdi. Həmin ailənin 7 illik övlad həsrəti, nəhayət ki, onun həyata gəlişi ilə bitmişdi.

Hələ orta məktəb illərindən Kamilin dərin intellektual potensiala malik olduğu bəlliydi, əla qiymətlərlə oxuyurdu. Artıq peşə-sənət seçimini də etmişdi – atasının yolu ilə gedəcəkdi. Qədəmləri yer tutandan böyük həvəslə atası ilə birgə arxeoloji qazıntılara yollanardı. Qərarında israrlı idi, tarixçi-arxeoloq olmaq istəyirdi. Bu ümdə arzusuna yetmək üçün 1979-cu ildə Şirvanşahlar Sarayı Dövlət Tarix-Memarlıq Qoruq Muzeyinin arxeoloji fondunda laborant kimi fəaliyyətə başladı. Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirəndən sonra isə Kamil elmi fəaliyyətə yön aldı. 1985-ci ildə AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunda elmi işçi kimi çalışmağa başladı, qısa müddətdə təşəbbüskar və səmərəli fəaliyyəti ilə sıravi elmi işçidən baş elmi işçi vəzifəsinə qədər yüksəldi.

Kamil İbrahimov əsl arxeoloqluğun zirvəsinə yolun arxeoloji ekspedisiyaların fəal üzvü kimi külünglə çarpışmaqdan keçdiyini məqamında zərgər dəqiqiliyi ilə dəyərləndirdi. Bununla da bütün varlığı ilə Azərbaycanın, o cümlədən, dünyanın ən füsunkar meqapolislərindən biri olan Bakının qədimdən-qədim tarixinin sirlərini üzə çıxarmağa kökləndi. Liderlik fərasəti, yüksək mənəvi keyfiyyətləri və həyat yoluna zəhmətkeşliyi ilə yaşıl işıq yandırmaq bacarığı hesabına 2001-ci ildən 2007-ci ilə qədər Bakı arxeoloji ekspedisiyasına rəhbərlik etmək şərəfinə nail oldu. Atasının adına layiq oğul olduğunu əməldə sübut etdi – vaxtilə ata Fərhad İbrahimovun tutduğu vəzifəyə oğul kamil ibrahimov da yüksəldi.

29 yaşlı tarixçi-tədqiqatçı 20 ildən artıq müddətdə Bakı, Şamaxı, Gəncə, Şabran, Yenikənd və digər arxeoloji ekpedisiyalarda səyini əsirgəmədi. Xarici ölkələrdə beynəlxalq arxeoloji ekspedisiyaların tərkibində də müstəqil Azərbaycanı layiqincə təmsil etdi. Beləcə, Kamil İbrahimov 2007-ci ildə Azərbaycan Beynəlxalq Ekoenergetika Akademiyasında "Bakı və Abşeronun arxeoloji xəritəsi və ekoarxeoloji problemləri" mövzusunda dissertasiyasını müdafiə etdi, çox keçmədi ki, professor adına da layiq görüldü. Bunun ardınca Türkiyənin Akdeniz Universiteti və İstanbul Piri Reis Universitetinin də professoru seçildi.

Bu istedadlı və çalışqan soydaşımız Azərbaycan və Türk dünyasının tarixi tədqiqatlar xəzinəsinə dəyərli elmi irs yadigar qoyub. O, 10 kitabın, 100-dən çox elmi əsərin, 100-ə qədər jurnal və qəzet məqaləsinin müəllifi, eləcə də, 12 kitabın elmi redaktoru oldu. Vətənini beynəlxalq elmi konfrans və digər mötəbər tədbirlərdə layiqincə təmsil etdi. Onun tutduğu müxtəlif vəzifələr və ən əsası onların əksəriyyətində eyni vaxtda çalışması, çoxşaxəli və irimiqyaslı fəaliyyəti Azərbaycan aliminin intellektual potensialının genişliyinin göstəricisi idi.

Professor Kamil İbrahimov Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsində sektor müdiri, Qala Tarix-Etnoqrafiya Qoruğunda direktor müavini, AMEA-nın Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyat Muzeyinin elmi işçisi, BDU-nun tarix fakültəsinin müəllimi, Azərbaycan Beynəlxalq Ekoenergetika Akademiyasında "Elmi və ekoarxeoloji tədqiqatlar" mərkəzinin və Bakı arxeoloji ekspedisiyasının rəhbəri, Azərbaycan Prezidenti yanında Ali Attestasiya Komitəsinin tarix və siyasi elmlər üzrə ekspert şurasının üzvü kimi mühüm vəzifələrdə çalışırdı. Bu silsilə mövqeyi ilə yanaşı, Türk Tarix Qurumu, Almaniya–Azərbaycan Cəmiyyəti, Beynəlxalq Muzeylər Şurası(İCOM), "Yarat" Müasir İncəsənət Məkanı İctimai Birliyi, "Miras" İctimai Birliyi, "Simurq" Assosiasiyası və AAK-ın "Tarix, insan, cəmiyyət" elmi jurnalının redaksiya heyətinin üzvü kimi də yorulmadan, gecəli-gündüzlü fəaliyyət göstərirdi.

Mənəviyyat nuru qanında-canında idi, məsləki-məramı ilə türk oğlu türk idi. Yüksək insani keyfiyyətləri və elm fədaisi kimi türk birliyinin möhkəmlənməsində də Kamil İbrahimovun mühüm payı var. Türkiyə Azərbaycanla eyni səviyyədə onun mənəvi dünyasının vətəni idi. Türkiyəli həmkarları da bu nurlu alimi qədərincə dəyərləndirir, tez-tez qardaş ölkənin ən nüfuzlu elm ocaqlarında müxtəlif mövzularda kurs və mühazirələrə, beynəlxalq səviyyəli tədbirlərə dəvət edirdilər.

Bu cəfakeş alimin zəngin fəaliyyəti qədərincə dəyərini aldı, Azərbaycanın və xeyli ölkənin ən nüfuzlu elm ocaqlarının diplom, fəxri fərman və digər mükafatları ilə təltif olundu. 2018-ci il may ayının 18-də isə qüruru köksünə belə sığmırdı, sevinci göylərə bülənd olmuşdu. Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə "Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülməsi ona bir dünya bəxş etmişdi. Hədsiz dərəcədə xoşbəxt idi, o, bunu mənalı ömür kitabının ən yaddaqalan səhifələrindən biri sayırdı.

Kamil İbrahimovun cəmiyyətdə olduğu kimi ailəsində əvəzolunmaz yeri vardı. Ailəcanlı idi, əzizlərindən ötəri özünü oda-közə yaxardı. Həyat yoldaşı İlhamə İbrahimova ilə birgə balalarının Vətənə layiqli övlad kimi yetişməsi üçün can qoymuşdu. Onların yüksək təhsil almalarına məxsusi önəm verirdi. Böyük oğlu Tural Şimali Kipr Türk Respublikasında ali təhsilini artıq başa vurub, kiçik oğlu Nicat isə həmin ölkədə ali təhsilini davam etdirir.

Vaxtsız olsa da, amma Kamil İbrahimov xoşbəxtlər xoşbəxti kimi köçdü bu dünyadan. Gözlərini əbədi yummaq ərəfəsində doğma Qarabağımızın yağı düşməndən azad edilməsinin canlı şahidlərindən oldu. Tanrı ən dəyərli bəndələrindən biri kimi bu möhtəşəm qürur hissini ona halal bildi.

Dostumuz, şair-jurnalist Əli Nəcəfxanlının poetik deyimidir: "Vergül-vergül yaşayırıq günləri, Üç nöqtəyə daşıyırıq günləri..." Lakin Haqq dünyasına qovuşandan sonra heç də hamının ömür yazısının bu üç nöqtəsi zamanın sınağına sinə gərə bilmir. Tezliklə həmin nöqtələrdən yalnız biri qalır. Bir ildir ki, yoxluğu qəlbimizi dağlayan, qoyub getdiyi iz və irs isə öyüncümüzə çevrilən Kamil İbrahimov da belə soydaşlarımızdandır.

Kamil İbrahimov bu millətə say-seçmə dahilər bəxş edən ulu Şirvan diyarında – dədə-baba yurdu Şamaxıda dəfn olunub. Şəksiz, ruhu cənnətməkanlıqdır.

***Azad MÜZƏFFƏRLİ,***
***Əməkdar jurnalist***